ETİBAR ƏLİYEV

# MƏKTƏBLİ FƏLSƏFƏSİ

qanun nəşriyyatı

Kitabda Antik dövrdən müasir dövrə qədər filosofların həyatı, onların əsas ideyaları və təsəvvürləri əksini tapıb. Böyük filosofların təhsil və elmə aid baxışları köhnəlmir. Kitab həm orta məktəblərin yuxarı sinif şagirdləri, həm də ali məktəb tələbələri üçün düşünmək, diskussiya aparmaq baxımından lazımlıdır. Fəlsəfi ideyaların dərki digər fənlərin qavranılmasına yol açır. Kitabda fəlsəfi ideyaların ardıcıllığına diqqət yetirilib.

**Etibar Əliyev. MƏKTƏBLİ FƏLSƏFƏSİ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 336 s.

Janr: non-fiction/fəlsəfə/təhsil
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 06.05.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Məsləhətçilər: | Könül Həsənova |
| | *filologiya üzrə fəlsəfə doktoru* |
| | Könül Quliyeva |
| Redaktor: | Şərif Ağayar |
| Korrektorlar: | Aynur Məmmədova, |
| | Əyyar Tahir |
| Texniki redaktor: | Əsəd Qaraqaplan |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-951-7

© Qanun Nəşriyyatı, 2024
© Etibar Əliyev, 2024

## Albert Eynşteynin uşaqlara müraciəti

*Əziz uşaqlar!*

*Sizi – çiçəklənməkdə olan günəşli ölkənin xoşbəxt gəncliyini qarşımda gördüyüm üçün çox şadam. Unutmayın, məktəbdə öyrəndiyiniz bütün möcüzəli biliklər çoxsaylı nəsillərin əməyinin, böyük zəhmətinin bəhrəsi və bəşəriyyətin tükənməz səylərinin nəticəsidir. Bu biliklərin hamısı sizə miras kimi təqdim olunur ki, siz də bu sərvəti qəbul edib qədrini biləsiniz, ona öz töhfənizi verərək artırasınız və nə vaxtsa öz övladlarınıza əminliklə ötürəsiniz. Ölümə məhkum bizlər bu əbədi biliklərə imza atmaqla ölməzliyə qovuşacağıq. Əgər bunları heç bir zaman yaddan çıxarmasanız, həyatın və insan əməyinin mənasını başa düşəcəksiniz, digər xalqlara və nəsillərə düzgün yanaşmağı öyrənəcəksiniz. Müəllimin əsas məharəti biliklərin və yaradıcı əməyin dərk edilməsinin əhəmiyyətini və onun sevincini şagirdinə yaşatmaqdır.*

# GİRİŞ

## FƏLSƏFƏ NƏ ÜÇÜN MARAQLIDIR?

Bir dəfə yunan filosofu Pifaqordan soruşurlar ki, o müdrikdirmi? Pifaqor belə cavab verir: "Mən müdrik deyiləm, filosofam". Yəni müdrikliyi (sophia) sevirəm (phileo).

Fəlsəfə yunan sözüdür, Azərbaycan dilində "müdrikliyə məhəbbət" deməkdir. Bu, eyni zamanda, həm qədim, həm də ən cavan elmlərdən biridir. Çünki mütəfəkkirlərin irəli sürdüyü ideyalar heç vaxt qocalmır. Biliklər qocala bilər, lakin müdriklik dünyaya təəccüblə baxmaq, heç kimin görə bilmədiyini görmək bacarığı, özünün, bəşər cəmiyyətinin, tarixin mənasını dərk etməkdir. Bütün bunlar fəlsəfə deməkdir. İnsan başqa insanlar arasında yaşadığına, xeyirlə-şər, namusla namussuzluq arasında daim seçim etdiyinə, öz həyatı ilə bağlı ən vacib qərarları qəbul etməyə məcbur qaldığına görə fəlsəfəyə üz tutur.

Fəlsəfə bizə dərk olunmuş həyat, xeyir və şər haqqında müdrik məsləhətləri öyrənmək, insanın cəmiyyətdə

və kainatda yerini, vəzifəsini dərk etmək, tale, xoşbəxtlik, məhəbbət, ölüm kimi fenomenlərə münasibətini işləyib hazırlamaq imkanını verir. Nə fizika, nə biologiya, nə dilçilik belə məsləhətlər vermir. Bu elmlər nəticəsində insan mütəxəssis kimi formalaşır, fəlsəfəni bilmək isə insanı daha ağıllı edə bilir. Ağıllı olmaq öz həyatından düzgün istifadə etmək, öz əməllərinin nəticəsini öncədən görmək, xoşbəxt olmaq və həyata vurulmaq deməkdir. Görünür, orta məktəblərdə fəlsəfəni tədris edən Avropa ölkələri heç də yanılmayıb.

İnsanın mənəvi həyatı elm, din, incəsənət və fəlsəfəyə söykənir. Cəmiyyəti elmsiz və incəsənətsiz təsəvvür etmək mümkün olmadığı kimi, fəlsəfəsiz də təsəvvür etmək olmaz. Filosoflar, yəni insanın, cəmiyyətin bütövlükdə dünyanın mövcudluğunun son səbəblərini axtaran, bəşəriyyətin hara istiqamətləndiyini, tarixdə tərəqqinin olub-olmadığını, yaxud idrakın kainatda daim mövcudluğunu, eyni zamanda kainatın nə olduğunu, insanın zamanda və məkanda onun sonsuzluğunu və qanunlarını necə dərk etdiyini öyrədən insanlar olmasa cəmiyyət də olmaz. Kainatın mənşəyi və inkişafının qanunlarını öyrənən fizik, həyatın necə meydana gəldiyini və canlının cansızdan nə ilə fərqləndiyini öyrənən bioloq, bəşər dillərinin qohumluğunu öyrənən və bizim dil vasitəsi ilə deyil, dilin bizim vasitəmizlə danışdığı qənaətinə gələn dilçi fəlsəfi düşüncə tərzinə malik olmalıdır. Lakin başqasının əlində oyuncaq kimi yaşamaq istəməyən, öz işinin, başqaları ilə

münasibətinin mahiyyətinə varmaq istəyən, heç kimə oxşamayan, öz həyatını azad şəkildə qurmağa çalışan hər kəs fəlsəfi düşüncə tərzinə malik olmalıdır.

Fəlsəfə insana deyir: düşün, nə üçün yaşadığını, nəyə görə dünyaya gəldiyini, müsibətlərinin, bədbəxtliklərinin səbəblərini, onlardan ötrü cəmiyyətin, yaxud özünün günahkar olduğunu başa düşməyə cəhd et; hamıdan yaxşı özünün həyata keçirə biləcəyin işi axtar; nifrətə və qəzəbə yol vermə, məhəbbətlə yaşa və necə olur-olsun yaxşılıq etməyə çalış; doymuş və hər şeydən razı canlıya çevrilmə, qoy qeyri-kamilliyin sənə əzab versin; özünə səmimi şəkildə baxmağı bacar, axı məziyyətlərinin və yaxşı cəhətlərinin böyük hissəsini özün uydurmusan, axı sənin mövcudluğunun istisi-soyuğu bu günə kimi heç kimə dəyməyib, hələ bu vaxta kimi heç kimə yaxşılıq etməmisən, çünki yaxşılıq etmək sənətdir.

Beləliklə, fəlsəfə insana insan olmaq sənətini, yaşamaq sənətini, dünyanı dərk etmək sənətini, insanlarla ünsiyyət sənətini, ölümdən qorxmamaq və öz taleyinə cəsarətlə baxmaq sənətini öyrədir. Biz fəlsəfəni öyrənərək bu xüsusi, ola bilsin, ən vacib sənəti öyrənirik.

İnsana insan olmağı yalnız fəlsəfə öyrətmir. Bununla ədəbiyyat, təsviri incəsənət, musiqi, insanı tərbiyələndirən və onun xasiyyətinə yumşaqlıq gətirən din də məşğul olur. Onlardan fərqli olaraq, fəlsəfə təbiətin və cəmiyyətin dərk olunması metodlarını tapmağa, bəşəriyyətin mənəvi təcrübəsini ümumiləşdirməyə və onların bəzi qanunauy-

ğunluğunu üzə çıxarmağa çalışır. Fəlsəfə həm də özünün kəşflərini anlayış və kateqoriyalar sistemi vasitəsilə ifadə etməyə cəhd edir ki, bu baxımdan o, fizika və kimya kimi konkret elmlərə bənzəyir. Çox vaxt bu özəllik fəlsəfəni elm adlandırmağa əsas yaradır. Lakin əgər elmdən danışarkən ciddi və dəqiq, məntiqi cəhətdən bir-biri ilə bağlı, təcrübədə yoxlanıla bilən anlayışları və qanunları nəzərdə tuturuqsa, fəlsəfə, əlbəttə, biliyin tamamilə xüsusi sahəsidir. Fəlsəfi müddəaların çoxu təcrübə yolu ilə sübut olunmur və təcrübənin nəticəsi deyil. Təcrübə yolu ilə həyatın və şüurun inkişaf edən təbiətdən doğulduğunu, Allahın dünyanın əsasını təşkil etdiyini, insan azadlığının zərurət kimi insan təbiətindən meydana gəldiyini sübut etmək olmaz. Əgər insan mövcudluğunun əsas məsələləri birdəfəlik və həmişəlik sübut olunsaydı, yaşamaq xeyli sadələşərdi.

Platon fəlsəfəni tamın, ümuminin dərk edilməsi kimi başa düşürdü. Aristotel isə fəlsəfəni biliklərin universal sistemi hesab edir, bütün yerdə qalan elmləri onun hissələri adlandırırdı.

Həyat fəlsəfəsinin görkəmli nümayəndəsi sayılan alman filosof Artur Şopenhauerə görə, fəlsəfənin qurulması cəhdləri ona görə uzun müddət uğursuz olub ki, onu sənətin (burada bədii fəaliyyət yox, yaşamaq, dərk etmək, yaxşılıq etmək sənəti nəzərdə tutulur – müəl.) deyil, elmin yolu ilə yaratmağa cəhd göstəriblər. Heykəltaraş üçün mərmər nə deməkdirsə, filosof üçün kateqoriyalar və anlayışlar eyni mahiyyətlidir. Lakin anlayışlar vasitəsilə şərh